*Layihə*

**“Ətriyyat-kosmetika mallarının təhlükəsizliyi haqqında Texniki reqlament”in təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Ətriyyat-kosmetika mallarının təhlükəsizliyi haqqında Texniki Reqlament” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “__” ______ 2024-cü il
№ ___

*Layihə*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2024-cü il _______ tarixli ___nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Ətriyyat-kosmetika mallarının təhlükəsizliyi haqqında**

**Milli texniki reqlament**

## 1. Ümumi müddəalar

1.1. “Ətriyyat-kosmetika mallarının təhlükəsizliyi haqqında milli texniki reqlament” (bundan sonra – bu reqlament) “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisində ətriyyat-kosmetika mallarının təhlükəsizliyinin təmin edilməsinə və onların istehlak bazarlarında sərbəst dövriyyəsinə dair tələbləri müəyyən edir.

1.2. Bu reqlamentin məqsədi insan həyatını və sağlamlığını, əmlakını qorumaq, ətraf mühiti mühafizə etmək, o cümlədən ətriyyat-kosmetika mallarının, eləcə də onlarla əlaqəli proseslərinin və istehsal metodlarının təhlükəsizliyi ilə bağlı istehlakçıları çaşdıran hərəkətlərin qarşısını almaqdır.

1.3. Azərbaycan Respublikasında ətriyyat-kosmetika mallarının təhlükəsizliyinə dair tələbləri müəyyən edən digər texniki reqlamentlər qəbul edilərsə, ətriyyat-kosmetika malları Azərbaycan Respublikasında qüvvədə olan bütün texniki reqlamentlərin tələblərinə uyğun olmalıdır.

1.4. Bu reqlament Azərbaycan Respublikasının ərazisində istehlak qablarında dövriyyəyə buraxılan ətriyyat-kosmetika mallarına şamil edilir.

1.5. Bu reqlament insan bədəninə udma, inhalyasiya, inyeksiya və ya implantasiya vasitəsilə daxil edilmə üçün nəzərdə tutulmuş mallara, dəri örtüyünün zədələnməsi ilə tətbiq olunan tatuaj mallarına, həmçinin xəstəliklərin diaqnozu və müalicəsi üçün istifadə olunan mallara şamil edilmir.

## 2. Əsas anlayışlar

2.1. Bu reqlamentdə istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **ampula kosmetikası** - birdəfəlik istifadə üçün nəzərdə tutulmuş hermetik möhürlənmiş şüşə (polimer) qabda qablaşdırılan ətriyyat-kosmetika malları;

2.1.2. **ətriyyat-kosmetika mallarının təhlükəsizliyi** - ətriyyat-kosmetika mallarının yararlılıq müddətində təyinatına və istifadə üsuluna uyğun istifadə edildikdə istehlakçıya zərərli təsirinin olmamasını təmin edən xassələrinin və xüsusiyyətlərinin məcmusu;

2.1.3. **ikincili qablaşdırma** - ətriyyat-kosmetika mallarının ilkin qablaşdırmada yerləşdirildiyi lakin daşınma üçün nəzərdə tutulmayan qablaşdırma;

2.1.4. **dövriyyəyə buraxılma** - malın istehsalçı və ya satıcı (idxalçı) tərəfindən respublika ərazisində satılması və ya başqa bir şəkildə istehlakçılara verilməsi üçün nəzərdə tutulan zaman (ilk oferta daxil olmaqla);

2.1.5. **istehsalçı** - ətriyyat-kosmetika mallarını istehsal edən və (və ya) öz adı və (və ya) ticarət nişanı altında dövriyyəyə buraxan və bu texniki reqlamentin tələblərinə uyğunluğuna görə məsuliyyət daşıyan hüquqi şəxs, fərdi sahibkar;

2.1.6. **idxalçı** – ətriyyat-kosmetika mallarının təhvil verilməsi üçün ölkənin qeyri-rezidenti ilə xarici ticarət müqaviləsi bağlayan, bu ətriyyat-kosmetika mallarının satışını həyata keçirən və onların bu texniki reqlamentin tələblərinə uyğunluğuna görə məsuliyyət daşıyan ölkənin rezidenti;

2.1.7. **ətriyyat-kosmetika mallarının inqrediyenti** - ətriyyat-kosmetika mallarının istehsalı üçün istifadə olunan sintetik və ya təbii mənşəli maddə və ya maddələr qarışığı. İnqrediyentlərə, onlarda olan qatışıqlar, həmçinin ətriyyat-kosmetika mallarının istehsalı prosesində istifadə olunan və hazır mallarda olmayan materiallar daxil deyil;

2.1.8. **konservantlar** - ətriyyat-kosmetika mallarının yararlıq müddəti ərzində mikrob çirklənməsinə qarşı dayanaqlığı təmin edən təbii və (və ya) sintetik mənşəli kimyəvi maddələr;

2.1.9. **dekorativ kosmetika** - üz, göz, dodaq, qaş, bədən və saç və dırnaqların rənglənməsi üçün ətriyyat-kosmetika malları;

2.1.10. **uşaq kosmetikası** - 14 yaşa qədər uşaqlar üçün nəzərdə tutulmuş ətriyyat-kosmetika malları;

2.1.11. **intim kosmetika** - xarici cinsiyyət orqanlarına və ətrafdakı bədən bölgələrinə qulluq üçün ətriyyat-kosmetika malları;

2.1.12. **professional kosmetika** - bərbər və (və ya) kosmetik xidmətlərin göstərilməsində hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən istifadə üçün nəzərdə tutulmuş ətriyyat-kosmetika malları;

2.1.13. **tatuaj üçün kosmetika** - inyeksiya təsiri olmadan dəriyə rəsm çəkmək üçün hazırlanmış ətriyyat-kosmetika malları;

2.1.14. **boyaq maddələri** - ətriyyat-kosmetika mallarına rəng vermək üçün nəzərdə tutulmuş və ya dərinin, saçın və dırnaqların rənglənməsi üçün nəzərdə tutulmuş ətriyyat-kosmetika mallarına daxil olan təbii və ya sintetik mənşəli kimyəvi maddələr;

2.1.15. **ətriyyat-kosmetika mallarının nişanlanması (markalama)** - istehlak qablaşdırmasının üzərinə tətbiq olunan istehlakçı üçün yazılar, rəqəmsal, rəngli və qrafik işarələr, etiketlər, yarlıklar;

2.1.16. **ətriyyat-kosmetika malınun əmtəə nişanı** - istehsalçı tərəfindən mala verilmiş şifahi və (və ya) rəqəmsal işarəsi;

2.1.17. **ətriyyat-kosmetika mallarının təyinatı** - ətriyyat və kosmetik mallarının tətbiq sahəsini konkretləşdirən funksional xassəsi;

2.1.18. **ətriyyat-kosmetika mallarının adı** - oxşar ətriyyat-kosmetika malları növünün eyni adla göstərilməsi (diş pastası, losyon, ətir, krem və s.);

2.1.19. **nanomaterial** - ən azı bir xarici ölçüsü və ya daxili quruluşu 1 ilə 100 nm arasında dəyişən xüsusi hazırlanmış həll olunmayan və ya biostabil material;

2.1.20. **oxşar ətriyyat-kosmetika malları** - tərkib hissəsinə görə oxşar və eyni tələblərə cavab verən eyni adlı mallar;

2.1.21. **ətriyyat-kosmetika malları (PKM)** – insanın birbaşa xarici örtüyünə (dəri, saç örtüyü, dırnaqlar, dodaqlar və xarici cinsiyyət orqanları) və ya dişlərə və ağız boşluğunun selikli qişasına tətbiq olunması üçün nəzərdə tutulan, əsas məqsədi onları təmizləmək, görünüşünü dəyişdirmək, xoş bir qoxu vermək, və (və ya) bədən qoxusunu korreksiya etmək, və (və ya) qorumaq, və (və ya) yaxşı vəziyyətdə saxlamaq, və (və ya) onlara qulluq etmək üçün hazırlanmış maddə və ya maddə qarışıqları;

2.1.22. **ilkin qablaşdırma** - ətriyyat-kosmetika malları ilə birbaşa təmasda olan qablaşdırma;

2.1.23. **pilinq** - keratolitiklərin köməyi ilə epidermisin səthi hüceyrələrini çıxarmaq üçün ətriyyat-kosmetika malları;

2.1.24. **ətriyyat-kosmetika mallarının istehlak qabları** – içində ətriyyat-kosmetika malları ilə istehlakçıya çatan, nəqliyyat qabı funksiyasını yerinə yetirməyən, ətriyyat-kosmetika mallarının ilkin və ya ilkin və təkrar qablaşdırılmasının kombinasiyası olan qablar;

2.1.25. **nümunə** - kiçik qablaşdırmada və (və ya) sadələşdirilmiş qablaşdırmada təqdim olunan, sınaq və aprobasiya üçün nəzərdə tutulmuş ətriyyat-kosmetika mallarının nümunəsi;

2.1.26. **reseptura** - ətriyyat-kosmetika mallarının tərkibinə daxil olan inqrediyentlərin kütlə payı göstərməklə istehsalçı tərəfindən təyin olunmuş tam siyahısı;

2.1.27. **saşe** - birdəfəlik istehlak üçün yumşaq qablaşdırmada ətriyyat-kosmetika malları;

2.1.28. **ağız boşluğunun gigiyenası malları** - dişlərə, diş ətlərinə və ağız boşluğunun selikli qişasına birbaşa tətbiq edilməsi üçün nəzərdə tutulan və yeganə və (və ya) əsas məqsədi onların təmizlənməsi, aromatizasiyası, görünüşünün dəyişdirilməsi, qorunması, yaxşı vəziyyətdə saxlanılması olan gigiyenik və (və ya) profilaktik təsirli ətriyyat-kosmetika malları;

2.1.29. **yararlılıq müddəti** - bitəndən sonra ətriyyat-kosmetika mallarının təyinatı üzrə istifadə üçün yararsız hesab edilən dövr. Yararlılıq müddəti mal istehsalçısı tərəfindən texniki sənədlərdə müəyyən edilir. Yararlılıq müddəti zamanı istehsalçı malların istehlakçının həyatı və sağlamlığı üçün təhlükəsizlik tələblərinə uyğunluğunu və saxlama şərtlərinə uyğun olaraq istehlak xüsusiyyətlərinin qorunmasını təmin etməlidir;

2.1.30. **ətriyyat-kosmetika mallarının standart saxlama şəraiti** - maye mallar üçün saxlama temperaturu 5 dərəcədən aşağı və 25 dərəcədən yüksək olmamalıdır; bərk tualet sabunu üçün mənfi 5 dərəcədən aşağı olmamalı, qalan ətriyyat-kosmetika malları üçün 0 dərəcədən aşağı və 25 dərəcədən yüksək olmamalı, birbaşa günəş işığının təsiri altında olmamalıdır;

2.1.31. **texniki sənədlər** - ətriyyat-kosmetika mallarının istehsalı, saxlanması, daşınmasına dair sənədlər (texniki şərtlər, standartlar, texnoloji təlimatlar, resepturalar, spesifikasiyalar və s.);

2.1.32. **nəqliyyat tarası** - ətriyyat-kosmetika mallarının istehlak tarasında (qutuda, qabda və s.) qablaşdırılması, saxlanması və daşınması üçün nəzərdə tutulmuş, sərbəst nəqliyyat vahidi təşkil edən tara;

2.1.33. **UB filtr (ultrabənövşəyi filtr)** - absorbsiya, əks etdirmə və ya yayılma yolu ilə dərini ultrabənövşəyi şüalanmanın keçməsindən qorumaq üçün nəzərdə tutulmuş maddə;

2.1.34. **etiket** - qablaşdırılmış ətriyyat-kosmetika malı haqqında istehlak qabında yerləşdirilmiş məlumat vasitəsi;

2.1.35. **yarlık** - markalama üçün nəzərdə tutulmuş, ətriyyat-kosmetika mallarının vahidi üzərinə vurulmuş və ya əlavə edilmiş və ya qablaşdırmaya qoyulmuş istənilən formalı, ölçülü və materialdan ibarət olan mal.

2.2. Bu reqlamentdə istifadə olunan digər anlayışlar "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 3. Ətriyyat-kosmetika mallarınının eyniləşdirilməsi qaydaları

3.1. Bu reqlamentin tətbiqi üçün ətriyyat-kosmetika mallarının eyniləşdirilməsi onların bu reqlamentdə müəyyən edilmiş xüsusiyyətlərinə, müvafiq texniki sənədlərə, tədarük müqavilələrinə, spesifikasiyalara, etiketlərə və (və ya) annotasiyalara və (və ya) müvafiq malları səciyyələndirən digər sənədlərə uyğun olaraq aparılır.

3.2. Ətriyyat-kosmetika mallarının səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

3.2.1. malların istifadə üsulu - ətriyyat-kosmetika malları yalnız insan bədəninin müəyyən hissələrinin xaricinə tətbiq üçün nəzərdə tutulmuşdur;

3.2.2. malların istifadə olunduğu yer - ətriyyat-kosmetika malları dəriyə, saçlara, dırnaqlara, dodaqlara, dişlərə, ağız boşluğunun selikli qişasına və xarici cinsiyyət orqanlarına tətbiq olunur;

3.2.3. malların istifadəsinin məqsədləri (ayrı-ayrılıqda və ya hər hansı bir kombinasiyada) – dərinin, saçın, dırnaqların, dodaqların, dişlərin, ağız boşluğunun selikli qişasının və xarici cinsiyyət orqanlarının bütövlüyünü pozmadan təmizlənməsi və (və ya) görünüşünü dəyişdirmək, onlara xoş bir qoxu vermək və (və ya) qoxunu korreksiya etmək, onları normal funksional vəziyyətdə saxlamaq.

## 4. İstehlak bazarında ətriyyat-kosmetika mallarının dövriyyəsinə dair tələblər

4.1. Ətriyyat-kosmetika malları bu reqlamentin tələblərinə, habelə tələbləri onlara şamil olunan digər texniki reqlamentlərə uyğunluğu qiymətləndirildikdə Azərbaycan Respublikasının ərazisində istehlak bazarlarında dövriyyəyə buraxıla bilər.

4.2. "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən ətriyyat-kosmetika mallarının tətbiqinə müvafiq qaydada verilən toksikoloji-gigiyena rəyinin olduğu halda icazə verilir.

4.3. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmayan və bu reqlamentdə nəzərdə tutulmuş üsulla uyğunluğu

qiymətləndirilməmiş ətriyyat-kosmetika mallarının Azərbaycan Respublikasının ərazisində istehlak bazarlarında dövriyyəyə buraxılmasına yol verilmir.

## 5. Ətriyyat-kosmetika mallarının təhlükəsizliyinə dair tələblər

5.1. Ətriyyat-kosmetika mallarının təhlükəsizliyi aşağıdakı tələblərə əsasən təmin edilir:

5.1.1. tərkibinə görə;

5.1.2. fiziki və kimyəvi göstəricilərə görə;

5.1.3. mikrobioloji göstəricilərə görə;

5.1.4. toksiki elementlərin miqdarına görə;

5.1.5. toksikoloji göstəricilərə görə;

5.1.6. kliniki (klinik və laboratoriya) göstəricilərə görə;

5.1.7. istehsala görə;

5.1.8. istehlak qablaşdırmasına görə;

5.1.9. malların nişanlanmasına görə.

5.2. Ətriyyat-kosmetika mallarının tərkibinə dair tələblər:

5.2.1 ətriyyat-kosmetika mallarında Əlavə 1-də göstərilən maddələrdən istifadə etmək qadağandır;

5.2.2. ətriyyat-kosmetika mallarında Əlavə 2-də göstərilən maddələrdən, məhdudiyyətlər nəzərə alınmaqla, istifadəsinə icazə verilir;

5.2.3. ətriyyat-kosmetika mallarında Əlavə 3-ə uyğun olaraq boyaq maddələrdən istifadə edilməsinə icazə verilir;

5.2.4. ətriyyat-kosmetika mallarında Əlavə 4-də göstərilən konservantlardan istifadə edilməsinə icazə verilir;

5.2.5. ətriyyat-kosmetika mallarında Əlavə 5-ə uyğun olaraq ultrabənövşəyi filtrlərdən istifadə edilməsinə icazə verilir;

5.2.6. Əlavə 1-5-də verilmiş ətriyyat-kosmetika mallarının tərkibində olan inqrediyentlərin siyahısı müəyyən edilmiş qaydada aktuallaşır.

5.3. Ətriyyat-kosmetika mallarının fiziki və kimyəvi göstəricilərinə dair tələblər:

5.3.1. Əlavə 6-da göstərilən ətriyyat-kosmetika malları üçün hidrogen göstəricisinin (ph) dəyəri bu əlavədə müəyyən edilmiş normaya uyğun olmalıdır;

5.3.2. flüor tərkibli ağız boşluğu gigiyenası malları üçün flüorid tərkibi (flüorun molar kütləsi baxımından) Əlavə 2-də olan tələblərə cavab verməlidir.

5.4. Ətriyyat-kosmetika mallarının mikrobioloji göstəricilərinə dair tələblər:

5.4.1. ətriyyat və kosmetika mallarının mikrobioloji göstəriciləri Əlavə 7-də olan tələblərə cavab verməlidir;

5.4.2. aşağıdakı ətriyyat-kosmetika malları üçün mikrobioloji göstəricilər müəyyən edilmir:

5.4.2.1. tərkibində həcmcə 25%-dən çox konsentrasiyada etil spirti və (və ya) üzvi həlledicilər olan, durulaşdırmadan istifadə olunan ətriyyat-kosmetika malları;

5.4.2.2. su əsaslı dırnaq laklarından başqa dırnaq lakları;

5.4.2.3. dezodorantlar, antiperspirant-dezodorantlar, antiperspirantlar;

5.4.2.4. oksidləşdirici saç boyaları, saçların rəngini açmaq və onları vurğulamaq üçün vasitələr;

5.4.2.5. tiol birləşmələri əsaslı saçların kimyəvi qıvrılması üçün və saç düzümü üçün vasitələr;

5.4.2.6. tioglikolik turşu əsaslı depilyasiya vasitələri;

5.4.2.7. yağ əsaslı bərk tualet sabunu;

5.4.2.8. quru karandaşlar;

5.4.2.9. vanna duzları;

5.4.2.10. 100% efir yağları;

5.4.2.11. tərkibində hidrogen peroksid və ya hidrogen peroksid buraxan digər komponentlər, o cümlədən hidrogen peroksidin konsentrasiyası (inqrediyent kimi və ya ayrılan) 0,1% - 6,0% olan karbamid peroksid və sink peroksid olan diş ağardıcı mallar;

5.4.2.12. hidrogen pH göstəricisi 10,0-dan çox olan təraş malları (kremlər, gellər və sair).

5.5. Toksiki elementlərin miqdarına dair tələblər:

5.5.1. Tərkibində 1%-dən çox miqdarda təbii bitki və ya təbii mineral mənşəli xammal olan ətriyyat-kosmetika mallarında toksiki elementlərin miqdarı aşağıdakılardan çox olmamalıdır:

5.5.1.1. arsen-5,0 mq/kq;

5.5.2.2. civə-1,0 mq/kq;

5.5.3.3. qurğuşun-5,0 mq/kq.

5.6. Ətriyyat-kosmetika mallarının toksikoloji və kliniki (kliniki-laborator) göstəricilərinə dair tələblər:

5.6.1. ətriyyat-kosmetika malları təyinatı üzrə istifadə edildikdə insanlar üçün təhlükəsiz olmalıdır;

5.6.2. ətriyyat-kosmetika mallarının toksikoloji göstəriciləri Əlavə 8-də olan tələblərə cavab verməlidir;

5.6.3. ətriyyat-kosmetika mallarının kliniki (kliniki-laboratoriya) göstəriciləri Əlavə 9-da olan tələblərə cavab verməlidir;

5.6.4. ağız boşluğu gigiyenası mallarının klinik göstəriciləri Əlavə 10-da verilən tələblərə cavab verməlidir;

5.6.5. dekorativ kosmetikanın, o cümlədən dırnaq laklarının, eləcə də bir texniki sənədlə hazırlanmış, lakin rəng fərqi incəliyi (tonu) ilə fərqlənən, eyni adda rəngləndirici və çalarlıq verən malların toksikoloji sınaqları tədqiqat üçün elan edilmiş tonların ən azı 30%-də tam şəkildə aparılmalı, tədqiq olunan nümunələrdə hər bir konkret boyanın maksimum miqdarı olmalı və tədqiqat üçün iddia edilən qalan tonları olan mallarda yalnız həssaslaşdırıcı təsir müəyyən edilməlidir;

5.6.6. Ətriyyat-kosmetika mallarının toksikoloji və kliniki (kliniki-laboratoriya) göstəriciləri onların fiziki-kimyəvi və mikrobioloji göstəricilərinə görə müsbət sınaq nəticələri əldə olunandan sonra akkreditasiya olunmuş sınaq laboratoriyalarında müəyyən edilir.

5.7. Ətriyyat-kosmetika mallarının istehsalına dair tələblər:

5.7.1. onların istehsalını bu reqlamentin 5.7.5-ci yarımbəndinin tələblərinə uyğun olaraq həyata keçirmək;

5.7.2. onların istehsalını bu reqlamentin 5.7.6-cı yarımbəndinin tələblərinə cavab verən istehsal sahələrində həyata keçirmək;

5.7.3. bu reqlamentin 5.7.7-ci yarımbəndinin tələblərinə cavab verən texnoloji avadanlıq və inventarlardan istifadə etmək;

5.7.4. istehsal prosesinə bu reqlamentin 5.7.8-ci bəndinin tələblərinə cavab verən personalın buraxılmasına icazə vermək;

5.7.5. istehsal və dövriyyə prosesində ətriyyat-kosmetika mallarının təhlükəsizliyi üçün aşağıdakıları təmin etmək:

5.7.5.1. malların zəruri olan texnoloji istehsal proseslərinin seçilməsini;

5.7.5.2. xammalın, qablaşdırma materiallarının, qablaşdırılmamış malların və hazır malların çirklənməsini istisna edən istehsalın texnoloji proseslərinin ardıcıllığının və arasıkəsilməz axınının seçimini;

5.7.5.3. istehsal nəzarəti proqramlarında istehsal mərhələlərində texnoloji proseslərin və malların nəzarət aparılmalı mərhələlərinin təyinini;

5.7.5.4. mal istehsalında istifadə olunan texnoloji vasitələr və yardımçı materiallar vasitəsi ilə xammal üzərində nəzarətin aparılması, habelə lazımi doğruluğu və nəzarətin tamlığını təmin etmək vasitəsilə qablaşdırılmamış və hazır mallar üzərində nəzarətin aparılmasını;

5.7.5.5. xammal, qablaşdırma materialları, qəbul meyarları, zay və ya malda kiçik kənara çıxmalar olduğu hallarda tədbirlər, daşınma şərtləri üçün tələblərin müəyyən edilməsini;

5.7.5.5. malların istehsalının bu reqlamentin tələblərinə cavab verməsini təmin edən qaydada texnoloji avadanlıqların işinə nəzarətin aparılmasını;

5.7.5.7. texnoloji proseslərin nəzarət aparılan mərhələləri barədə və ətriyyat-kosmetika mallarının istehsal mərhələlərində nəzarət nəticələri barədə məlumatların sənədləşdirilməsini təmin edilməsini;

5.7.5.8. hər bir mərhələ üçün bütün texnoloji əməliyyatların təfərrüatları ilə uçotunun və qeydiyyatının (əlavə edilən xammal, temperaturlar, sürətlər, qarışdırma vaxtları, nümunə götürmə, təmizləmə, zəruri hallarda avadanlıqların sanitariya işləməsi və qablaşdırılmamış malların ötürülməsi) aparılmasını;

5.7.5.9. malların saxlanılması şərtlərinə riayət edilməsini;

5.7.5.10. mal istehsalı prosesində istifadə olunan binaların, texnoloji avadanlıqların və inventarların çirklənməsi istisna edilən vəziyyətdə saxlanılmasını;

5.7.5.11. işçilər tərəfindən şəxsi gigiyena qaydalarına riayət edilməsi üsullarının seçilməsini;

5.7.5.12. qablaşdırılmamış və hazır ətriyyat-kosmetika mallarının istehsalı prosesində istifadə olunan istehsalat binalarının, texnoloji avadanlıqların və inventarların təmizlənməsi, yuyulması, dezinfeksiya, dezinseksiya və deratizasiya edilməsinin keçirilmə üsullarının və dövriliyinin müəyyən edilməsini;

5.7.5.13. istehsal olunan malların bu reqlamentlə müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiq edən sənədlərin kağız və (və ya) elektron daşıyıcılarda aparılmasını və saxlanmasını;

5.7.5.14. ətriyyat-kosmetika mallarının izlənilməsini;

5.7.5.15. istehlak bazarlarında dövriyyəyə buraxılmadan əvvəl müəyyən edilmiş sınaq üsulları ilə qəbul meyarlarına uyğunluğunun təyin edilməsi vasitəsilə hazır malların nəzarətdən keçirilməsini;

5.7.5.15. ətriyyat-kosmetika mallarının hər partiyasından nümunələrinin yararlılıq müddəti bitənə qədər arxivdə saxlanmasını.

5.7.6. Ətriyyat-kosmetika mallarının istehsalı prosesinin həyata keçirildiyi istehsalat sahələrinə dair tələblər aşağıdakılardır:

5.7.6.1. istehsal binalarında quraşdırılmış havalandırma və (və ya) kondisioner sistemləri istehsal otağına havanın daxil olmasını təmin etməli və bu malların çirklənmə mənbəyi olmamalıdır;

5.7.6.2. istehsal binalarında quraşdırılmış işıqlandırma sistemləri bütün qırıntıların lokalizasiyasının təyin etmə mümkünlüyünü təmin etməli və onların mallara daxil olmasının qarşısını almalı, həmçinin malların çirklənmə mənbəyi olmamalıdır;

5.7.6.3. işçilər üçün şəxsi və istehsalat (xüsusi) işçi geyimlərinin saxlanması üçün soyunub-geyinmə otaqları istehsal binalarında olmamalıdır;

5.7.6.4. istehsal otaqlarında sanitar qovşaqları olmamalı və sanitar qovşaqlarının qapıları birbaşa istehsal yerlərinə çıxmamalıdır;

5.7.6.5. istehsalat sahələrinin planlaşdırılması texnoloji proseslərin ardıcıllığını və arasıkəsilməz axınını təmin etməli, zəruri hallarda malların çirklənməsinin qarşısını almaq üçün xammalın, qablaşdırılmamış və hazır malların, çirklənmiş və təmiz inventarların qarşılıqlı və ya çarpaz axınlarını istisna etməlidir;

5.7.6.5. istehsal yerləri elə şəkildə planlaşdırılmalı və təchiz olunmalıdır ki, ora heyvanların, o cümlədən gəmiricilərin və həşəratların daxil olmasından müdafiəsi təmin ediləcək;

5.7.6.7. istehsal yerləri kir, kondensasiya, kif və digər oxşar çirklənmə mənbələrinin çıxarılması mümkün olmayan zonaların olmamasını təmin edən şəkildə təchiz olunmalıdır;

5.7.6.8. döşəmə dizaynı istehsal otağında suyun yığılmasını istisna etməlidir;

5.7.6.9. döşəmələrin, divarların və qapıların səthləri sanitariya işləməsi və dezinfeksiya edilə bilən suya davamlı, yuyula bilən və toksik olmayan materiallardan hazırlanmalıdır;

5.7.6.10. tavanlar (tavanlar olmadıqda - damın daxili səthi) və istehsal sahələrinin üstündəki strukturlar mallara hər hansı bir hissəcik və ya kondensatın daxil olmasını istisna etməlidir;

5.7.6.11. açılan pəncərələr (framuqalar) həşəratlara qarşı qoruyucu torlarla təchiz olunmalıdır;

5.7.6.12. istehsal sahələrində kanalizasiya avadanlığı malların çirklənmə riskini istisna etmək üçün layihələndirilməli və quraşdırılmalıdır;

5.7.6.13. İstehsal binalarında yuyucu və dezinfeksiyaedici maddələr istisna olmaqla, ətriyyat-kosmetika mallarının istehsalında istifadə olunmayan hər hansı bir maddə və materialın saxlanmasına icazə verilmir. Yuyucu və dezinfeksiyaedici maddələrin istehsal otağının xüsusi ayrılmış zonalarında saxlanmasına icazə verilir.

5.7.7. Ətriyyat-kosmetika mallarının istehsalı prosesində istifadə olunan texnoloji avadanlıq və inventara dair tələblər aşağıdakılardır:

5.7.7.1. bu cür texnoloji avadanlıqlar və inventar mallar çirklənmə mənbəyi olmayan materiallardan hazırlanmalı, onların sanitariya işləməsi və dezinfeksiya edilməsi mümkün olmalıdır;

5.7.7.2. bu cür texnoloji avadanlıqlar bu reqlamentin məqsədlərinə çatmaq üçün zəruri olduğu hallarda müvafiq nəzarət cihazları ilə təchiz edilməlidir.

5.7.8. Ətriyyat-kosmetika mallarının istehsalı prosesində işləyən işçilərin təhlükəsizliyinə dair tələblər:

5.7.8.1. istehsal prosesində məşğul olan və xammal, qablaşdırılmamış və hazır mallar ilə təmasda olan materiallar və avadanlıqlarla birbaşa əlaqədə olan işçilər şəxsi gigiyena qaydalarına riayət etməli, malların çirklənmə mənbəyi olmamaq üçün lazım olan dərəcədə təmiz xüsusi istehsal geyimləri və ayaqqabılardan istifadə etməlidir;

5.7.8.2. istehsal prosesində işləyən işçilərə həyata keçirdikləri peşə vəzifələrinə aid olmayan və malların çirklənməsinə səbəb ola bilən əşyaları istehsal sahələrinə keçirmək, bu sahələrdə siqaret çəkmək və qida qəbul etmək qadağandır.

5.8. Ətriyyat-kosmetika mallarının istehlak qabları belə malların yararlılıq müddəti ərzində təhlükəsizliyini və qorunmasını təmin etməlidir.

## 6. Ətriyyat-kosmetika mallarının nişanlanmasına dair tələblər

6.1. Ətriyyat-kosmetika mallarının nişanlanması istehlakçı üçün Əlavə 2-5-də göstərilən nişanlanma tələbləri nəzərə alınaraq istehlak konteynerinə, etiketə, yarlıka yazılar, rəqəmsal, rəngli və qrafik işarələr şəklində məlumat tətbiq etməklə həyata keçirilir. Ətriyyat-kosmetika malları üçün müşayiət olunan məlumatlar varsa (yarlık), mallara açıq bir kitabda əl şəklində bir qrafik işarəsi tətbiq olunur (Əlavə 11).

6.2. Ətriyyat-kosmetika mallarının nişanlanması aşağıdakı məlumatları ehtiva etməlidir:

6.2.1. ətriyyat-kosmetika mallarının adı, əmtəə nişanı (varsa);

6.2.2. ətriyyat-kosmetika mallarının təyinatı (malın adından irəli gəlmirsə);

6.2.3. uşaqlar üçün nəzərdə tutulmuş kosmetika malınun nişanlanmasında bu barədə müvafiq məlumat;

6.2.4. istehsalçının adı və yerləşməsi (ölkə daxil olmaqla hüquqi ünvan);

6.2.5. ətriyyat-kosmetika mallarının mənşə ölkəsi (mal istehsalının yerləşdiyi ölkə istehsalçının hüquqi ünvanı ilə üst-üstə düşmürsə);

6.2.6. istehsalçı istehlakçıdan mal barədə iddiaları qəbul etmirsə, istehlakçıdan iddiaları qəbul etmək üçün istehsalçı tərəfindən səlahiyyət verilmiş təşkilatın (istehsalçının səlahiyyətli nümayəndəsi və ya idxalçı) adı və yeri (hüquqi ünvanı);

6.2.7. nominal çəkisi 5 qramdan az olan və ya nominal həcmi 5 ml-dən az olan ətriyyat-kosmetika malları və ya ətriyyat-kosmetika malınun nümunəliyi istisna olmaqla, istehlak qablarında malların nominal miqdarı (həcmi və ya kütləsi) (bərk tualet sabunu üçün - bir parçasının nominal kütləsi);

6.2.8. rəng və (və ya) ton (rəngin fərq incəliyi) (dekorativ kosmetika və rəngləmə malları üçün);

6.2.9. flüorid birləşmələri olan ağız boşluğu gigiyenası malları üçün flüoridin kütlə payı (% və ya mq/kq və ya ppm);

6.2.10. yararlılıq müddəti: istehsal tarixi (ay, il) və yararlılıq müddəti (aylar, illər) və ya "yararlıdır tarixə (ay, il) qədər" yazısı və ya "(ay, il) tarixədək istifadə etmək" yazısı;

6.2.11. saxlama şərtləri standart şərtlərdən fərqli olduqda saxlama şərtlərinin təsviri;

6.2.12. malların tətbiqi zamanı xüsusi ehtiyat tədbirləri (lazım olduqda), o cümlədən bu texniki reqlamentin 2-5 əlavələrində göstərilən xəbərdarlıqlar haqqında məlumat daxil olmaqla;

6.2.13. ətriyyat-kosmetika mallarının partiyasını müəyyən etməyə imkan verən partiya nömrəsi və ya xüsusi kod;

6.2.14. ətriyyat-kosmetika mallarının istifadəsi üsulları haqqında məlumat (əgər bu məlumatın olmaması istehlakçının ətriyyat-kosmetika mallarından düzgün istifadə etməməsinə gətirə bilər);

6.2.15. inqrediyentlərin 6.3-cü yarımbəndə uyğun olaraq siyahısı.

6.3. İnqrediyentlərə dair tələblər aşağıdakılardır:

6.3.1. inqrediyentlərin siyahısından əvvəl "İnqrediyentlər" və ya "Tərkib" başlığı olmalıdır;

6.3.2. inqrediyentlər resepturadakı kütlə paylarının azaldılması qaydasında göstərilir, ətir (aromatik) kompozisiyası tərkibi açıqlamadan bir inqrediyent kimi göstərilir. Kompozisiyaya Əlavə 2-də göstərilən inqrediyentlər (№ 67-92) daxildirsə və onların miqdarı yuyulan mallar üçün 0,01%-dan, yuyulmayan mallar üçün 0,001%-dan çoxdursa, onlar malın tərkibində göstərilməlidir;

6.3.3. nanomateriallar şəklində mövcud olan inqrediyentlər, onların kosmetik inqrediyentlərin beynəlxalq nomenklaturasına (INCI - International Nomenclature of Cosmetic Ingredients) uyğun göstərildiyi təqdirdə, adından sonra mötərizədə "nano" sözlərinin qeyd edilməsi ilə inqrediyentlər siyahısında aydın şəkildə göstərilməlidir;

6.3.4. 1%-dan az konsentrasiyada olan inqrediyentlər, konsentrasiyası 1%-dan çox olan inqrediyentlərdən sonra istənilən qaydada verilə bilər;

6.3.5. boyaq maddələri rəng indeksinə və ya qəbul edilmiş işarələrə görə digər inqrediyentlərdən sonra istənilən qaydada verilə bilər;

6.3.6. inqrediyentlərin siyahısı Azərbaycan dilində və ya latın əlifbasının hərflərindən istifadə edilərək kosmetik inqrediyentlərin beynəlxalq nomenklaturasına (INCI) uyğun olaraq təqdim edilə bilər;

6.3.7. müxtəlif rəng fərqi incəliyi (tonlar) seriyası şəklində istehsal olunan dekorativ kosmetika mallarında "tərkibində ola bilər" və ya (+/-) işarəsindən istifadə edərək seriyada istifadə olunan bütün boyaq maddələri sadalana bilər.

6.4. Bu reqlamentin 6.2-ci yarımbəndində nəzərdə tutulmuş məlumatlar malların təyinatı üzrə istifadəsi şəraitində aydın və qablaşdırmadan silinməz olmalıdır.

6.5. Bu reqlamentin 6.2-ci yarımbəndində nəzərdə tutulmuş ətriyyat-kosmetika malları haqqında məlumatlar Azərbaycan Respublikasının dövlət dilində verilir.

## 7. Təhlükəsizlik tələblərinə uyğunluğun təmin olunması

7.1. Ətriyyat-kosmetika mallarının bu reqlamentin tələblərinə uyğunluğu birbaşa onun təhlükəsizlik tələblərini və ya istinad standartlarının tələblərini yerinə yetirməklə təmin edilir. İstinad standartlarının tələblərinə könüllü olaraq əməl olunması reqlamentin təhlükəsizlik tələblərinə uyğunluq prezumpsiyasına əsas verir.

7.2. Ətriyyat-kosmetika mallarının sınaq (tədqiq) metodları bu reqlamentin təhlükəsizlik tələbləri və malın uyğunluğunun qiymətləndirilməsi proseduralarının həyata keçirilməsi üçün zəruri olan nümunələrin götürülməsi qaydalarını özündə ehtiva edən standartlaşdırma sahəsində sənədlərdə göstərilir.

## 8. Ətriyyat-kosmetika mallarının uyğunluğunun qiymətləndirilməsi

8.1. Ətriyyat-kosmetika malları istehlak bazarlarında dövriyyəyə buraxılmazdan əvvəl bu reqlamentin təhlükəsizlik tələblərinə cavab verməlidir.

8.2. Ətriyyat-kosmetika mallarının bu reqlamentə uyğunluğunun qiymətləndirilməsi uyğunluq bəyannaməsi və ya sertifikatlaşdırma üsulu ilə aparılır.

8.3. "Texniki tənzimləmə haqqında" Qanunun 12.2-ci və 12.3-cü maddələrinə əsasən, uyğunluğun qiymətləndirilməsi zamanı Nazirlər Kabineti tərəfindən qəbul olunan uyğunluğun qiymətləndirilməsi sxemlərindən (modullarından) və prosedurlarından istifadə edilir.

8.4. Sertifikatlaşdırma Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"na uyğun olaraq uyğunluğu qiymətləndirən qurum tərəfindən həyata keçirilir.

8.5. Uyğunluğu qiymətləndirən qurum tərəfindən ətriyyat-kosmetika mallarına Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarına uyğun olaraq uyğunluq sertifikatı təqdim edilir.

## 9. Malların uyğunluq nişanı ilə nişanlanması

9.1. Texniki reqlamentin tələblərinə uyğun olan və uyğunluğun qiymətləndirilməsi prosedurlarına uyğun olaraq uyğunluğu qiymətləndirilən mallar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uyğunluq nişanının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları"na uyğun olaraq uyğunluq nişanı ilə nişanlanmalıdır.

9.2. Malların uyğunluq nişanı ilə nişanlanması istehlak bazarlarında dövriyyəyə buraxılmazdan əvvəl həyata keçirilir.

9.3. Mallara uyğunluq nişanı dəqiq və aydın təsviri təmin edən istənilən şəkildə vurula bilər. Yüngül sənaye mallarına uyğunluq nişanı ona tətbiq olunan bütün texniki reqlamentlərin tələblərinə uyğun olduqda vurulur.

9.4. Uyğunluq nişanı birbaşa mala, bu mümkün olmadıqda qablaşdırmaya, içliyə, etiketə tətbiq oluna və ya mala əlavə edilmiş sənədlərə daxil edilə bilər.

## 10. Ətriyyat-kosmetika mallarına toksikoloji-gigiyena rəyinin verilməsi

10.1. Ətriyyat-kosmetika mallarının bu reqlamentin sanitariya-kimyəvi və gigiyenik təhlükəsizlik tələblərinə (bundan sonra sanitariya təhlükəsizlik tələbləri) uyğunluğu onlara verilmiş toksikoloji-gigiyena rəyi ilə təsdiq olunur.

10.2. Ətriyyat-kosmetika mallarına toksikoloji-gigiyena rəyinin verilməsi əhalinin sanitariya-epidemioloji salamatlığı sahəsində səlahiyyətli dövlət orqan (bundan sonra - səlahiyyətli orqan) tərəfindən həyata keçirilir.

10.3. Azərbaycan Respublikasının ərazisində istehsalı nəzərdə tutulan ətriyyat-kosmetika mallarının bu reqlamentin sanitariya təhlükəsizlik tələblərinə uyğunluğu onların istehsalata qoyulması mərhələsində, respublika ərazisinə gətirilən ətriyyat-kosmetika mallarının isə onların gömrük ərazisinə gətirilməsindən əvvəl həyata keçirilir.

10.4. Ətriyyat-kosmetika mallarına toksikoloji-gigiyena rəyinin verilməsi üçün ərizəçi (istehsalçı, istehsalçının səlahiyyətli nümayəndəsi, idxalçı) tərəfindən aşağıdakı sənədlər təqdim olunur:

10.4.1. ərizə;

10.4.2. hüquqi şəxslərin dövlət reyestrindən çıxarış və ya sahibkarlıq subyektlərinin (kommersiya hüquqi şəxslərinin və fərdi sahibkarların) vahid reyestrindən çıxarış;

10.4.3. ərizəçi tərəfindən malların hazırlanmasına dair təsdiq edilmiş sənədlərin surətləri (texniki sənədlər və (və ya) ətriyyat-kosmetika mallarının tərkibinə daxil olan maddələrin siyahısı, 2-5 nömrəli Əlavələrdə göstərilən inqrediyentlərin konsentrasiyası göstərilməklə);

10.4.4. ərizəçi tərəfindən təsdiq edilmiş malların orqanoleptik və fiziki-kimyəvi göstəricilərini ehtiva edən sənədlərin surətləri;

10.4.5. nanomaterial haqqında məlumat (istehsalçı ətriyyat-kosmetika mallarının tərkibində nanomateriallardan istifadə edərsə), o cümlədən kimyəvi adı, hissəcik ölçüsü, habelə fiziki və kimyəvi xüsusiyyətləri barədə məlumat;

10.4.6. ətriyyat-kosmetika mallarının istehlak qablarının bu reqlamentin 6-cı hissəsinin tələblərinə uyğun nişanlanması nümunəsi;

10.4.7. malların bəyan edilmiş istehlak xüsusiyyətlərini ehtiva edən annotasiya (istehsalçı onları malların nişanlanmasında bəyan edirsə), malların istifadəsi zamanı xüsusi ehtiyat tədbirləri (zəruri hallarda) və malların istifadəsi üsulları haqqında məlumatlar (məlumatların olmaması istehlakçının ətriyyat-kosmetika mallarından düzgün istifadə etməməsinə səbəb ola bilərsə);

10.4.8. akkreditasiya olunmuş sınaq laboratoriyasından əldə edilən, bu reqlamentin 5.3-5.6-cı bəndlərinin tələblərinə uyğunluğa dair tədqiqat (sınaq) protokolları və ya gigiyenik ekspertiza aktları və ya elmi hesabatlar və ya ekspert rəyləri;

10.4.9. malın istehsal metodlarının bu reqlamentin 5.7-ci bəndinin tələblərinə uyğunluğu barədə istehsalçının sənədi;

10.4.10. ərizəçi tərəfindən ətriyyat-kosmetika mallarının istehlak qablarının nişanlanmasında qeyd edilmiş istehlak xüsusiyyətlərini (antimikrob təsir, qırışlardan, SPF faktorundan (Sun Protection Factor - Gündən Qoruyucu Faktor), karioz əleyhinə, ağız boşluğu üçün gigiyena vasitələrinin iltihab əleyhinə təsiri və sair) təsdiq edən sənədlər.

10.4.11. Ətriyyat-kosmetika mallarının istehlak xüsusiyyətlərinin təsdiqlənməsi (könüllülər üzərində aparılan tədqiqatlar və (və ya) nümunə modelləri üzərində aparılan tədqiqatlar və (və ya) instrumental metodlardan istifadə etməklə və (və ya) ətriyyat-kosmetika mallarının tərkibində olan inqrediyentlərə dair elmi məlumatlar əsasında həyata keçirilə bilər).

10.5. İstehsalçının sənədlərinin xarici dildən Azərbaycan dilinə tərcümələri notarial qaydada təsdiqlənməlidir.

10.6. Ərizəçi malların təhlükəsizliyini təsdiq etmək məqsədilə təqdim olunan sənədlərin etibarlılığına görə məsuliyyət daşıyır.

10.7. Ərizəyə əsasən səlahiyyətli orqan tərəfindən ətriyyat-kosmetika mallarının istehsalı sahəsinin qiymətləndirilməsi aparılır və mal nümunələri götürülür.

10.8. Səlahiyyətli orqanın akkreditasiya edilmiş sınaq laboratoriyalarında ətriyyat-kosmetika mallarının toksikoloji-gigiyenik ekspertizası aparılır.

10.9. Ətriyyat-kosmetika mallarının ekspertizası səlahiyyətli orqanın akkreditasiya edilmiş sınaq laboratoriyalarının imkanı xaricində olduqda, Azərbaycan Respublikasında qanunla müəyyən edilmiş qaydada akkreditasiya edilmiş digər sınaq laboratoriyalarda aparılır. Bu laboratoriyalar respublika ərazisində olmadıqda isə digər dövlətlərin akkreditasiya edilmiş sınaq laboratoriyaları tərəfindən aparılmış müvafiq ekspertizaların nəticələrindən istifadə olunur.

10.10. Ətriyyat-kosmetika mallarına verilmiş toksikoloji-gigiyena rəylərinin qeydiyyata alınması üçün səlahiyyətli orqan tərəfindən elektron reyestr yaradılır və rəylər haqqında məlumatlar ora daxil edilir.

10.11. Ətriyyat-kosmetika mallarına verilmiş toksikoloji-gigiyena rəyinin hüquqi qüvvəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən hallarda səlahiyyətli orqan tərəfindən dayandırıla bilər.

10.12. Ətriyyat-kosmetika mallarının bu reqlamentin sanitariya təhlükəsizlik tələblərinə uyğunluğu haqqında verilmiş toksikoloji-gigiyena rəyi eyni adlı bir və ya daha çox əmtəə nişanlı (adlı) mal üçün tərtib olunaraq, malların adında və (və ya) resepturasında təhlükəsizlik göstəricilərinə dair dəyişikliklərə səbəb ola bilən dəyişiklik edilməzsə 1 (bir) il müddətində qüvvədə olur.

10.13. Toksikoloji-gigiyena rəyi Azərbaycan dilində tərtib edilir.

## 11. Yekun müddəalar

11.1. Bu reqlamentin tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

11.2. İstehlak bazarlarında bu reqlamentin tələblərinə uyğun olmayan mallara qarşı nəzarət tədbirləri İqtisadiyyat Nazirliyi tərəfindən aparılır.

11.3. Bu reqlament dərc olunduğu gündən 6 (altı) ay sonra qüvvəyə minir.

**Əlavə 1**

**Ətriyyat-kosmetika mallarında istifadəsi qadağan olunmuş maddələrin siyahısı**

| | |
|---|---|
| 1. N-5- Xlorbenzoksazol-2-ilasetamid (Cas No 35783-57-4) | 1. N-5-Chlorobenzoxazol-2-ylacetamide (Cas No 35783-57-4), |
| 2. 2-Asetoksietil Trimetilamonium hidroksid (asetilxolin) və onun duzları (Cas No 51-84-3, EC №200-128-9) | 2. 2-Acetoxyethyl trimethyl ammonium hydroxide (acetylcholine) and its salts (Cas No 51-84-3, EC № 200-128-9) |
| 3. Deanolaseqlumat (Cas No 3342-61-8, EC № 222-085-5) | 3. Deanol aceglumate (Cas No 3342-61-8, EC № 222-085-5) |
| 4. Spironolakton (Cas No. 52-01-7, EC №. 200133-6) | 4. Spironolactone (Cas No 52-01-7, EC № 200-133-6) |
| 5. [4-(4'-hidroksi-3'-yodfenoksi)-3,5-di -yodfenil]sirkə turşusu (TRİAK) və onun duzları (Cas No 51-24-1, EC № 200-086-1) | 5. [4-(4-Hydroxy-3-iodophenoxy)-3,5-diiodophenyl] acetic acid (Tiratricol) and its salts (Cas No 51-24-1, EC № 200-086-1) |
| 6. Metotreksat (Cas No 59-05-2, EC № 200-4138) | 6. Methotrexate (Cas No 59-05-2, EC № 200-413-8) |
| 7. Aminokapron turşusu və onun duzları (Cas No 60-32-2, EC № 200-469-3) | 7. Aminocaproic acid and its salts (Cas No 60-32- 2, EC № 200-469-3) |
| 8. Sinkofen, onun duzları, törəmələri və bu törəmələrin duzları (Cas No 132-60-5, EC № 205-067-1) | 8. Cinchophen, its salts, derivatives and salts of these derivatives (Cas No 132-60-5, EC № 205-067-1) |
| 9. Tiropropik turşusu və onun duzları (Cas No 51-26-3) | 9. Thyropropic acid and its salts (Cas No 51-26-3) |
| 10. Trixlorsirkə turşusu (Cas No 76-03-9, EC № 200-927-2) | 10. Trichloroacetic acid (Cas No 76-03-9, EC № 200-927-2) |
| 11. Akonit yarpaqları, kökləri və qalen qarışıqları (Cas No 84603-50-9, EC № 283-252-6) | 11. Aconitum napellus L. (leaves, roots and galenical mixtures) (Cas No 84603-50-9, EC №283-252-6) |
| 12. Akonitin (Akonitum napellusun əsas alkaloidi ) və onun duzları (Cas No 302-27-2, EC №206-121-7) | 12. Aconitine (principal alkaloid of Aconitum napellus L.) and its salts (Cas No 302-27-2, EC № 206-121-7) |
| 13. Adonis və onun qarışıqları (Bahar Çiçəyi) (Cas No 84649-73-0, EC № 283-458-6) | 13. Adonis vernalis L. and its mixtures (Cas No 84649-73-0, EC № 283-458-6) |
| 14. Epinefrin (Cas No 51-43-4, EC № 200-098-7) | 14. Epinephrine (Cas No 51-43-4, EC № 200-098-7) |
| 15. Rauvolfia ilan alkaloidləri və onların duzları (Cas No 90106-13-1, EC № 290-234-1) | 15. Rauwolfia serpentina alkaloids and their salts (Cas No 90106-13-1, EC № 290-234-1) |
| 16. Asetilen spirtləri, onların sadə və mürəkkəb efirləri və duzları | 16. Alkyne alcohols, their esters, ethers and salts |
| 17. İzoprenalin (Cas No 7683-59-2, EC № 231-687-7) | 17. Isoprenaline (Cas No 7683-59-2, EC № 231-687-7) |
| 18. Allilizotiyosiyanat (Cas No 57-06-7, EC № 200-309-2) | 18. Allyl isothiocyanate (Cas No 57-06-7, EC № 200-309-2) |
| 19. Alloklamid və onun duzları (Cas No 5486-77-1) | 19. Alloclamide and its salts (Cas No 5486-77-1) |

**Ətriyyat-kosmetika mallarında istifadəsi qadağan olunmuş maddələrin siyahısı**

| Maddənin Azərbaycan dilində adı | Maddənin Kosmetik İnqrediyentlərin Beynəlxalq Nomenklaturasına uyğun adı (INCI - International Nomenclature of Cosmetic Ingredients) |
|---|---|
| 20. Nalorfin, onun duzları və efirləri (Cas No 62-67-9, EC № 200-546-1) | 20. Nalorphine, its salts and ethers (Cas No 62-67-9, EC № 200-546-1) |
| 21. Mərkəzi sinir sisteminə təsir edən simpatomimetik aminlər (Cas No 300-62-9, EC № 206-096-2) | 21. Sympathicomimetic amines acting on the central nervous system: any substance contained in the first list of medicaments whichare subject to medical prescription and are referred to in reglament (Cas No 300-62-9, EC № 206-096-2) |
| 22. Anilin, onun duzları, halogen və sulfo törəmələri (Cas No 62-53-3, EC № 200-539-3) | 22. Aniline, its salts and its halogenated and sulphonated derivatives (Cas No 62-53-3, EC № 200-539-3) |
| 23. Betoksikain və onun duzları (Cas No 3818-62-0) | 23. Betoxycaine and its salts (Cas No 3818-62-0) |
| 24. Zoksazolamin (Cas No 61-80-3, EC № 200-519-4) | 24. Zoxazolamine (Cas No 61-80-3, EC № 200- 519-4) |
| 25. Prokainamid, onun duzları və törəmələri (Cas No 51-06-9, EC № 200-078-8) | 25. Procainamide, its salts and derivatives (Cas No51- 06-9, EC № 200-078-8) |
| 26. Benzidin (Cas No 92-87-5, EC № 202-199-1) | 26. Benzidine (Cas No 92-87-5, EC № 202-199-1) |
| 27. Tuaminoheptan, onun izomerləri və duzları (Cas No123-82-0, EC № 204-655-5) | 27. Tuaminoheptane, its isomers and salts (Cas No 123-82-0, EC № 204-655-5) |
| 28. Oktodrin və onun duzları (Cas No 543-82-8, EC № 208-851-1) | 28. Octodrine and its salts (Cas No 543-82-8, EC № 208-851-1) |
| 29. 2-Amino-1,2-bis-(4' -metoksifenil)etanol və onun duzları (Cas No 530-34-7) | 29. 2-Amino-1,2-bis (4-methoxyphenyl)ethanol and its salts (Cas No 530-34-7) |
| 30. 1,3-Dimetilpentilamin və onun duzları (Cas No 105-41-9, EC № 203-296-1) | 30. 1,3-Dimethylpentylamine and its salts (Cas No 105-41-9, EC № 203-296-1) |
| 31. 4-Aminosalisil turşusu və onun duzları (Cas No 65- 49-6, EC № 200-613-5) | 31. 4-Aminosalicylic acid and its salts (Cas No 65-49- 6, EC № 200-613-5) |
| 32. Toluidinlər, onların izomerləri, duzları, halogen və sulfo törəmələri (Cas No 26915-12-8, EC №248-105-2) | 32. Toluidines, their isomers, salts and halogenatedand sulphonated derivatives (Cas No 26915-12- 8, EC № 248-105-2) |
| 33. Ksilidinlər, onların izomerləri, duzları, halogen və sulfo törəmələri (Cas No 1300-73-8, EC № 215-091-4) | 33. Xylidines, their isomers, salts and halogenatedand sulphonated derivatives (Cas No 1300-73- 8, EC № 215-091-4) |
| 34. İmperatorin 9-(3-metoksilbut -2-eniloksi) - furo -[3,2-g] - xromen-7-on (Cas No 482-44-0, EC № 207-581-1) | 34. Imperatorin 9-(3-methoxylbut-2-enyloxy)-furo (3,2-g) chromen-7-one (Cas No 482-44-0, EC № 207-581-1) |

**Ətriyyat-kosmetika mallarında istifadəsi qadağan olunmuş maddələrin siyahısı**

| Maddənin Azərbaycan dilində adı | Maddənin Kosmetik İnqrediyentlərin Beynəlxalq Nomenklaturasına uyğun adı (INCI - International Nomenclature of Cosmetic Ingredients) |
|---|---|
| 35. Böyük dişqurtlayan (ammi majus) və onun qalen qarışıqları (Cas No 90320-46-0, EC № 291-072-4) | 35. Ammi majus and its galenical mixtures (Cas No 90320-46-0, EC № 291-072-4) |
| 36. 2-metil-2,3-dixlorbutan (Cas No 507-45-9) | 36. 2,3-dichloro-2-metylbutane (Cas No 507-45-9) |
| 37. Androgen təsirli maddələr | 37. Substances with androgenic effect |
| 38. Antrasen yağı (Cas No 120-12-7, EC № 204-371-1) | 38. Anthracene oil (Cas No 120-12-7, EC № 204- 371-1) |
| 39. Antibiotiklər | 39. Antibiotics |
| 40. Sürmə və onun birləşmələri (Cas No 7440-36-0, EC № 231-146-5) | 40. Antimony and its compounds (Cas No 7440-36-0, EC № 231-146-5) |
| 41. Apocynum kannabis və onun qarışıqları (Cas No 84603-51-0, EC № 283-253-1) | 41. Apocynum cannabinum L. and its mixtures (Cas No 84603-51-0, EC № 283-253-1) |
| 42. Apomorfin (R5, 6, 6a, 7-tetrahidro-6-metil-4H-dibenzo (de, g) xinolin-10,11-diol) və onun duzları (Cas No 58-00-4, EC № 200-360-0) | 42. Apomorphine (5, 6, 6a, 7-tetrahydro-6-methyl-4H- dibenzo [de,g]-quinoline-10,11-dihydric alcohol) and its salts (Cas No 58-00-4, EC № 200-360-0) |
| 43. Arsen və onun birləşmələri (Cas No 7440-38-2, EC № 231-148-6) | 43. Arsenic and its compounds (Cas No 7440-38-2, EC № 231-148-6) |
| 44. Adi belladonna və onun preparatları (Cas No 8007-93-0, EC № 232-365-9) | 44. Atropa belladona L. and its preparations (Cas No 8007-93-0, EC № 232-365-9) |
| 45. Atropin, onun duzları və törəmələri (Cas No51-55-8, EC № 200-104-8) | 45. Atropine, its salts and derivatives (Cas No 51-55- 8, EC № 200-104-8) |
| 46. Barium duzları, bu texniki reqlamentə əlavə 2-yə uyğun olaraq məhdudiyyətlərlə depilyatoriyalarda istifadə olunan barium sulfat və sulfiddən başqa və bu texniki reqlamentə əlavə 2 və əlavə 3-ə uyğun olaraq onun duzları və boyaq maddələri. (5) | 46. Barium salts, with the exception of barium sulphate, barium sulphide under the conditions laid down in Annex 2, and lakes, salts and pigments prepared from the colouring agents listed with the reference (5) in Annex 2, and Annex 3 |
| 47. Benzol (Cas No 71-43-2, EC № 200-753-7) | 47. Benzene (Cas No 71-43-2, EC № 200-753-7) |
| 48. Benzimidazol-2 (3H)-on (Cas No 615-16-7, EC № 210-412-4) | 48. Benzimidazol-2 (3H)-one (Cas No 615-16-7, EC № 210-412-4) |
| 49. Benzazepinlər və benzodiazepinlər (Cas No 12794-10-4) | 49. Benzazepines and benzadiazepines (Cas No 12794-10-4) |
| 50. 1-Dimetilaminometil-1-metilpropil benzoat (amilokain) və onun duzları (Cas No 644-26-8, EC № 211-411-1) | 50. 1- Dimethylaminomethyl-1-methylpropyl benzoate (amylocaine) and its salts (Cas No 644-26-8, EC № 211-411-1) |

**Ətriyyat-kosmetika mallarında
istifadəsi qadağan olunmuş maddələrin siyahısı**

| Maddənin Azərbaycan dilində adı | Maddənin Kosmetik İnqrediyentlərin Beynəlxalq Nomenklaturasına uyğun adı (INCI - International Nomenclature of Cosmetic Ingredients) |
|---|---|
| 51. 2,2,6-Trimetil-4-piperidil benzoat (benzamin) və onun duzları (Cas No 500-34-5) | 51. 2,2,6-Trimethyl-4-piperidyl benzoate (benzamine) and its salts (Cas No 500-34-5) |
| 52. İzokarboksazid (Cas No 59-63-2, EC № 200-438-4) | 52. Isocarboxazide (Cas No 59-63-2, EC № 200- 438-4) |
| 53. Bendroflumetiazid və onun törəmələri (Cas No 73-48-3, EC № 200-800-1) | 53. Bendroflumethiazide and its derivatives (Cas No 73-48-3, EC № 200-800-1) |
| 54. Berilyum və onun birləşmələri (Cas No 7440-41-7, EC № 231-150-7) | 54. Beryllium and its compounds (Cas No 7440-41- 7, EC № 231-150-7) |
| 55. Elementar brom (Cas No 7726-95-6, EC № 231-778-1) | 55. Bromine, elemental (Cas No 7726-95-6, EC № 231-778-1) |
| 56. Bretilium tonzilat (Cas No 61-75-6, EC № 200-516-8) | 56. Bretylium tosilate (Cas No 61-75-6, EC № 200- 516-8) |
| 57. Karbromal (Cas No 77-65-6, EC № 201-046-6) | 57. Carbromal (Cas No 77-65-6, EC № 201-046-6) |
| 58. Bromizoval (Cas No 496-67-3, EC № 207-825-7) | 58. Bromisoval (Cas No 496-67-3, EC № 207-825-7) |
| 59. Bromfeniramin və onun duzları (Cas No 86-22-6, EC № 201-657-8) | 59. Brompheniramine and its salts (Cas No 86-22- 6, EC № 201-657-8) |
| 60. Benzalkonium bromid (Cas No 1050-48-2, EC № 213-885-5) | 60. Benzilonium bromide (Cas No 1050-48-2, EC № 213-885-5) |
| 61. Tetrabutilammonium bromid (Cas No 71-91-0, EC № 200-769-4) | 61. Tetrylammonium bromide (Cas No 71-91-0, EC № 200-769-4) |
| 62. Brusin (Cas No 357-57-3, EC № 206-614-7) | 62. Brucine (Cas No 357-57-3, EC № 206-614-7) |
| 63. Tetrakain və onun duzları (Cas No 94-24-6, EC № 202-316-6) | 63. Tetracaine and its salts (Cas No 94-24-6, EC № 202-316-6) |
| 64. Mofebutazon (Cas No 2210-63-1, EC № 218-641-1) | 64. Mofebutazone (Cas No 2210-63-1, EC № 218-641-1) |
| 65. Tolbutamid (Cas No 64-77-7, EC № 200-594-3) | 65. Tolbutamide (Cas No 64-77-7, EC № 200-594-3) |
| 66. Karbutamid (Cas No 339-43-5, EC № 206- 424-4) | 66. Carbutamide (Cas No 339-43-5, EC № 206- 424-4) |
| 67. Fenilbutazon (Cas No 50-33-9, EC № 200-029-0) | 67. Phenylbutazone (Cas No 50-33-9, EC № 200-029-0) |
| 68. Kadmiyum və onun birləşmələri (Cas No 7440-43-9, EC № 231-152-8) | 68. Cadmium and its compounds (Cas No 7440-43- 9, EC № 231-152-8) |
| 69. Kantaridlər, qabarböcəyi (Cas No 92457-17-5, EC № 296-298-7) | 69. Cantharides, Cantharis vesicatoria (Cas No 92457-17-5, EC № 296-298-7) |

**Ətriyyat-kosmetika mallarında istifadəsi qadağan olunmuş maddələrin siyahısı**

| Maddənin Azərbaycan dilində adı | Maddənin Kosmetik İnqrediyentlərin Beynəlxalq Nomenklaturasına uyğun adı (INCI - International Nomenclature of Cosmetic Ingredients) |
|---|---|
| 70. (1R, 2S) - Heksahidro-1,2-dimetil-3,6-epoksi ftal anhidrid (kantaridin) (Cas No 56-25-7, EC № 200-263-3) | 70. (1R, 2S)-Hexahydro-1,2-dimethyl-3,6-epoxyphthalic anhydride (cantharidin) (Cas No56- 25-7, EC № 200-263-3) |
